Fərəcova Zöhrə. Ana, şəhid olsam, başını dik tut // Azərbaycan : qəzet. - 2022. - 27 oktyabr. - № 235. - S. 7.

Dünyanın ən müqəddəs duyğusudur Vətən sevgisi. Bircə anda bütün hisslərin, arzuların, xəyalların önünə keçə bilir. Can dərdini, ölüm qorxusunu yenir. Uğrunda ömrünün ən gözəl çağlarında şəhadəti yolunu seçir Vətən oğulları...
Onlardan biri idi Vüsal Zakir oğlu Teymurov. O, 1991-ci il martın 4-də Bakı şəhərində dünyaya gəlib. Ailədə üç uşaq olublar. Vətən müharibəsi şəhidi Vüsalın anası Nahidə Teymurova qəhrəman oğlunun uşaqlıq illərini nisgil dolu təbəssümlə yada salır: "Evimizin sonbeşiyi idi Vüsal. Özünü hamıya istədirdi. Şən, dəcəl, ərköyün uşaq idi. Ancaq mən ona heç əziyyət çəkmədim. Bağçaya qoydum. Çalışdım ki, ailəni dolandıraq. Həyat yoldaşım da Bayılda hərbi hissədə işləyirdi".
Vüsal çox fəal, öyrənməyə maraqlı uşaq olub. 1997-ci ildə Bakı şəhərində T.Məmmədov adına 239 nömrəli tam orta məktəbə gedib. Anası Nahidə xanım danışır ki, Vüsal məktəbdə də fərqlənirdi: "Hər yerdə istiqanlılığı, zarafatcıllığı ilə özünü sevdirirdi. Məktəbin sevimli şagirdlərindən idi. Müəllimləri ondan çox razı idilər. Dərslərini əla qiymətlərlə oxuyurdu. Məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edirdi. Şəhidlərimiz barəsində yazılmış şeirlər, mahnılar oxuyur, onların məzarlarını ziyarətə gedirdi və çox təsirlənirdi. Deyirdi ki, ana, mən də əsgər gedib şəhidlərimizin qisasını alacam. Balam o vaxtdan vətənpərvər idi".

## Haqsızlıqla barışmayan igid

Vüsal uşaqlıqdan çox zəhmətkeş olub. Dərslərini yaxşı oxumaqla bərabər, idmanla da maraqlanıb. Kiçik yaşlarında futbolla məşğul olub. Nahidə xanım xatırlayır: "Müəllimləri deyirdilər ki, onu futbola göndərməyin, qoyun oxusun. Ona repetitor da tutmadım, özü hazırlaşıb ali məktəbə qəbul oldu. Çox savadlı idi".
2008-ci ildə orta məktəbi bitirən Vüsal Teymurov Azərbaycan Kooperasiya Universitetinin Gömrük işinin təşkili fakültəsinə daxil olub. 2012-ci ildə ali təhsilini tamamalayıb. Müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib. Manqa komandiri olub. Nümunəvi xidmətə görə təşəkkür alıb.
Erməni vandallarının torpaqlarımızı işğal altında saxlamaları ilə barışmırdı. Düşmənin silahlı qüvvələrinin hərbi mövqelərimizi və mülki əhalinin yaşayış məntəqələrini intensiv atəşə tutmaları, təxribatlar törətmələri onu hiddətləndirirdi. Nahidə xanım söyləyir ki, general-mayor Polad Həşimov şəhid olandan sonra Vüsal çox həyəcanlı idi. Bir yerdə qərar tuta bilmirdi. Deyirdi ki, buna necə dözək?! Generalımızın qisası mütləq alınmalıdır. Vətən müharibəsi başlayandan isə Vüsal səbirsiz olmuşdu. Televizorda verilən xəbərləri diqqətlə izləyirdi.

Cəbhəyə yola düşəcəyi günü gözləyirdi. Nəhayət, o gün gəldi. Vüsal mənə müharibəyə gedəcəyini söyləyəndə həyəcanlandım. Dedi ki, ana, mən səninlə nəfəs alıram, amma vətənimiz də önəmlidir. Ağladım. Dedim ki, anan qurban, gedirsən, birdən sənə nəsə olar..."

Nahidə xanım oğlu ilə son görüşündən danışır: "Oktyabrın 5-də səhər qardaşı Ruslanla birlikdə hərbi komissarlığa yollandı. Nə bacısını, nə məni qoydu onu yola salmağa gedək. Evdən çıxanda dedi ki, səhər yeməyini hazırla gəlirəm. Biz elə bilirdik ki, qayıdıb gələcək. Yemək hazırladım, gözlədim gəlmədi... Böyük oğlum Ruslan qayıtdı. Dedi Vüsal müharibəyə getdi".

Vüsal Teymurov cəbhədən evə zəng edəndə çox danışa bilmirdi. Müharibənin ağrı-acılarını büruzə verməməyə səy göstərsə də, səsi həyəcanlı gəlirdi. Ata-anasını, bacı-qardaşını sakitləşdirməyə çalışırdı, "Hər şey yaxşıdı", - deyirdi. Müharibə, döyüşlər barədə heç nə söyləmirdi. Deyirdi ki, ana, bilirsən buralarda nələr var... gələndə danışacağam. Bir də doğulub-böyüdüyü Badamdardan, eləcə də bütün Azərbaycandan cəbhəyə gedən oğulların taleyi ilə maraqlanırdı. Hər zəngində soruşurdu: "Neçə şəhidimiz var? Badamdara neçə şəhid gəlib?" Anasına deyirdi ki, dua elə hərbçilərimiz salamat evlərinə qayıtsınlar.

Oktyabrın 29-da, bacısı Könülün ad günündə zəng vurdu, təbrik etdi. Sevinə-sevənə hansısa yüksəkliyi aldıqlarını söylədi: "Könül, sənin ad gününə bir yüksəkliyi hədiyyə etmişəm. Hərbi sirdir deyə adını demirəm".

## Cəsur döyüşçü

Nahidə xanım deyir, Vüsalın döyüş yoldaşları gəlir, onun barəsində elə xoş sözlər deyirlər ki, bizi qürurlandırırlar... "Danışırlar ki, Vüsal bacardığı qədər hər kəsin köməyinə çatmağa, yaralanmış silahdaşlarının qayğısına qalmağa tələsirdi. Yaşayış məntəqələrini azad edərkən o, boş qalmış apteklərə girib müxtəlif dərmanlar, ağrıkəsicilər, digər tibbi ləvazimatlar götürür, çantasına yığırdı. Döyüş yoldaşları yaralananda onlara imkan daxilində ilkin tibbi yardım göstərirdi".

Noyabrın 1-də anasına zəng vurub halallıq istəyib. Nahidə xanım hər gün dönə-dönə xatırladığı o söhbətlərindən danışır: "İstəməzdi mən ağlayam. O gün: "Ana, mənə görə heç vaxt kədərlənmə, şəhid olsam, başını dik tut, qayıtsam qəhrəman kimi qayıdacağam", - dedi. Bu, Vüsalın son zəngi oldu. Oğlum bizə söyləmişdi ki, üç-dörd gün zəng etməsəm, narahat olmayın. Ona görə də dörd gün rahat idim. Sonrakı günlər ondan xəbər ala bilməyəndə özümə yer tapa bilmədim".

Onlar Şuşa istiqamətində Xüsusi Təyinatlı Qüvvələrin arxasınca gediblər. Üç gün ac, susuz yolda olublar. Nahidə xanım Vüsalın döyüş yoldaşlarından eşitdiklərini danışır: "Vüsal Şuşada heç vaxt olmasa da, döyüş yoldaşlarına istiqamət verib, yol göstərib. Onlar Şuşa istiqamətində irəlilədikləri zaman üç dəfə pusquya düşüblər. Daşaltını keçdikdən sonra səkkiz saat mühasirədə qalıblar. Vüsal əvvəldən qorxu

bilməzdi. Döyüş yoldaşları danışırlar ki, oğlum mühasirədə də əhvalını pozmayıb. Yenə zarafat edib, deyib-gülüb, döyüş yoldaşlarını da ruhlandırıb. Beləcə, pusqudan çıxıblar. Döyüş taktikasına uyğun olaraq, altı döyüşçü başqa yolla gediblər. Onların biri də Vüsal olub. Son damla qanlarınadək vuruşublar. Vüsal snayperə tuş gəlib. Əvvəl ayağından vurulsa da, ayaq üstə qalxıb. Növbəti güllə ürəyindən dəyib. Kəlmeyi-şəhadətini deyib, gözlərini yumub".

Nahidə xanım gözyaşları ilə xatırlayır o günləri. Gözləri telefonda, qulaqları səsdə olub. Vüsalın zəngini gözləyiblər. Nahidə xanım xatırlayır: "Noyabrın 8-i idi. Çox narahat idim. Qızımgildəydim. Yuxu məni aparıb. Gördüm ki, Vüsal gəlir. Dedi ki, ana, mənə su ver. İri şüşə bardağı üç dəfə su ilə doldurub verdim, içdi. Mənə əl elədi: "Ana, mən gedirəm", - dedi. İstədim onu qucaqlayım. Qoymadı... Birdən ayıldım. Qızıma dedim ki,  Vüsal şəhiddi. Soruşdu ki, ana, kim sənə dedi? Cavab verdim ki, yuxuda gördüm Vüsalı. Haralara zəng etmədik... Dedilər ki, əlaqə yoxdur, maşın getmir, telefon işləmir. Noyabrın 13-də isə bizə zəng edib xəbər verdilər ki, Vüsal şəhid olub".

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Vüsal Zakir oğlu Teymurov yağı düşmənin işğalı altında olan Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə igidliklə vuruşub. Noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub. Vüsal Teymurov ölümündən sonra "Vətən uğrunda" , "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunub.

Arzuları çox idi. İxtisası üzrə iş tapıb işləmək istəyirdi. Sevdiyi qız vardı. Toy edib, xoşbəxt ailə qurmaq arzusundaydı. Anasına sevdiyi qızdan danışırdı. Nahidə xanım yana-yana yada salır: "Deyirdim ki, anan quban, qoy bir dəfə gedim qızgilə. Razılıq vermirdi ki, böyük qardaşım subaydı, həm də işə düzəlim sonra... Müharibəyə gedəndə dedi ki, ana qayıdım, əvvəl Ruslanı evləndirərik, beş ay sonra da mən evlənərəm. Sevdiyi qız Vüsal dəfn olunduğu gün bizə gəldi... Mənim balam kimi oğullar Vətən sevgisini ailəsindən, sevdiyindən üstün tutdular".